

# THE ENERGY OF INNOVATION

## BİZNES DAVRANIŞ KODEKSİ

Vədimiz

İnsanlarımız və Planetimiz

Şirkətimiz

Münasibətlərimiz və Sənayemiz



D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Mündəricat

Dəyərlərimiz....3

Şirkətimizin Direktorlar Şurası və İcraçı Rəhbərliyindən İsmarıc....4

## Vədimiz

Biz Kodeksimizə əməl edirik....6
Biz liderlərimizin daha yüksək standartlara əməl etməsini gözləyirik....8
Biz narahatlıqlarımızı paylaşır və bildiririk....10
Biz qisasa yol vermirik....12
Biz kömək üçün haraya müraciət etməli olduğumuzu bilirik....13

## İnsanlarımız və Planetimiz

Biz başqalarına hörmətlə yanaşırıq....15
Biz Weatherford şirkətinin təhlükəsizliyi və etibarlılığını təşviq edirik....17
Biz şəxsi məlumatları qoruyuruq....19
Biz dayanıqlı şirkətik....20

## Şirkətimiz

Biz işimizin keyfiyyəti ilə fəxr edirik....23
Biz aktivlərimizi mühafizə edirik....24
Biz Weatherford barədə kommunikasiyalarımızda ehtiyatlı davranırıq....27
Biz maliyyə qeydlərimizi dəqiqliklə aparırıq....29
Biz çirkli pulların yuyulmasının qarşısını almaq üçün təkidlə şəffaflıq tələb edirik....31
Biz daxili məlumatı kənar şəxslərlə ilə paylaşmırıq....32

## Münasibətlərimiz və Sənayemiz

Biz təchizatçılarla müsbət əlaqələr qururuq....34
Biz ədalətli şəkildə rəqabət aparırıq....35
Biz rüşvətxorluq və korrupsiya hallarına yol vermirik....37
Biz maraqların toqquşmasına yol vermirik....39
Biz hədiyyələr, əyləncə və səyahətlərlə bağlı qaydaları bilirik....41
Biz beynəlxalq ticarət qanunlarına əməl edirik....43

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz
ƏVVƏLKİ NÖVBƏTİ


D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Dəyərlərimiz

## COŞQU
Biz işimizdən enerji alır və sənayemizə, müştərilərimizə, bütün Şirkətimizə və cəmiyyətimizə müsbət təsir göstərməyə ilhamlanırıq.

## İNNOVASİYA
Biz Şirkətimizi, sənayemizi və müştərilərimizi irəli itələyəcək nailiyyətlər əldə etməyə çalışırıq.

## MƏSULİYYƏT
Biz dürüst işləyir, insanlarımız və komandalarımıza uğur qazanmaq imkanı verir və dünyamıza sadiq qalırıq.

## DƏYƏR YARADILMASI
Biz texnologiyaların fərqləndirilməsi və iş səmərəliliyinin yüksəldilməsi sayəsində inandırıcı və unikal üstünlüklər təmin edərək bütün səhmdarlarımız üçün uzunmüddətli fayda əldə etməyə çalışırıq.









Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz



D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Şirkətimizin Direktorlar Şurası və İcraçı Rəhbərlikdən İsmarıc

Əziz həmkarlar:

Enerji sahəsində cari və gələcək dünyəvi ehtiyacların təhlükəsiz, əxlaqi və dayanıqlı şəkildə qarşılanması məqsədilə innovativ texnologiya və xidmətlərin çatdırılmasında liderliyiniz və sədaqətiniz üçün sizə təşəkkürümüzü bildiririk. Hər gün bu missiyamızı həyata keçirmək və xidmət etdiyimiz şəxslər üçün etibarlı biznes ortaq olmaq niyyətilə əsas dəyərlərimizə sadiq qalmalı və mantramıza əməl etməliyik: Təklikdə biz müsbət təsir yaradırıq. Birlikdə biz dayandırılmazıq. Biz One Weatherford ailəsiyik.

Sənayedəki bir çox ən istedadlı insanlar One Weatherford ailəmizin üzvləridir. Tutduğunuz vəzifədən və dünyanın harasında işlədiyinizdən asılı olmayaraq, sizin hər biriniz Şirkətimizin gələcəyində mühüm rol oynayırsınız. Ən əsası hər gün qəbul etdiyiniz qərarlar sonunda Weatherford şirkətində və xidmət etdiyimiz cəmiyyətlərdə nail olduğumuz dürüstlük səviyyəsini müəyyən edir.

Bizim Biznes Davranış Kodeksimiz Şirkətimizin yüksək standartlarını və əsas dəyərlərimizin saxlanılması və bütün səhmdarlar üçün dayanıqlı dəyərlərin yaradılmasına nail olunmasında bu standartların rolunun əhəmiyyətini sizə anlatmaq üçün hazırlanmışdır. Kodeksimizə əməl etdiyiniz və burada verilən tövsiyələri təcrübənizdə tətbiq etdiyiniz halda, dürüstlük avtomatikləşir və qəbul etdiyiniz hər bir qərarın bünövrəsini qoyur.

Biz Kodeksimizi diqqətlə oxumanızı təkidlə tövsiyə edirik. Kodeksdə qayda kitabı deyil, gündəlik vəziyyətlərdə hər dəfə məsləhətə ehtiyacınız olduqda istinad edə biləcəyiniz dəyərli resurs kimi yanaşın. Kodeksimizdə təsvir edilməyən vəziyyətdə qarşılaşdığınız halda, çəkinmədən kömək üçün müraciət edin. Həmçinin yüksək standartlarımıza uyğun olmayan davranışla qarşılaşdığınızda, buna reaksiya verməyə cəsarət edin. Biz dürüstlüyümüzün qorunmasında sizə güvənirik.

Hər şeydən öncə unutmayın ki, siz One Weatherford ailəsinin dəyərli üzvüsünüz. Bizi başqalarından fərqləndirən işimizi ilk dəfədən və hər zaman düzgün görmək qətiyyətimizdir. Bizim Kodeksimiz və əsas dəyərlərimiz yalnız Weatherford şirkətinə xasdır və biz hər gün onlara hörmət və ehtiramla yanaşmalıyıq. Şirkətimizə sadiqliyinizi yüksək dəyərləndiririk.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03




# VƏDİMİZ

"Uğurumuz sadəcə gördüyümüz işlərdən deyil, eyni zamanda bu işləri görmə tərzimizdən asılıdır."

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz



D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ KODEKSİMİZƏ ƏMƏL EDİRİK

## ÖHDƏLİYİMİZ

Bizim Biznes Davranış Kodeksimiz əxlaqlı və məsuliyyətli iş yerinin qurulmasının bünövrəsidir. Kodeksimiz davranışlarımızı yönləndirir. Weatherford şirkətinin əməkdaşı olmaq və ya onunla əməkdaşlıq etmək imkanı Kodeksimizə əməl etməkdən asılıdır. Kodeksimiz hər birimizi dünyanın hər yerindən One Weatherford ailəsinə daxil olmaq üçün lazım olan ilham mənbəyi, məlumat və resurslarımızla əlaqələndirir.

## SİZİN MƏSULİYYƏTİNİZ

### İşinizi dürüst görmək.

Qanuna və Weatherford siyasətlərinə, standartlarına və biznes təcrübələrinə əməl etmək. Kodeksimizin məğzini oxumaq, bilmək, ona əməl etmək və onu gündəlik işinizdə tətbiq etmək.

### Kodeksə əməl etmək.

Bizim Kodeksimiz dünyanın istənilən yerindəki hər bir direktor, vəzifəli şəxs və əməkdaşımıza şamil edilir. O, həmçinin bizim adımızdan fəaliyyət göstərən üçüncü tərəflərə şamil edilir. Weatherford Kodeksimizə əməl olunmasını təmin etmək və direktorlarımız, vəzifəli şəxslərimiz, əməkdaşlarımız və adımızdan fəaliyyət göstərən üçüncü tərəfləri Kodeksə əməl olunması üçün məsul bilmək öhdəliyini üzərinə götürür.

Kodeksimizə etimadla yanaşın və hərəkətləriniz üçün məsuliyyət daşıyın. Unutmayın ki, Kodeksimizdə iş əsnasında yarana bilən hər əxlaq sualına cavab vermilmir. Davranışlarınızı idarə etmək və əxlaqla bağlı suallarınızı cavabladıra bilən resursları müəyyən etmək üçün ondan istifadə edin.

Kodeksimizin pozulması nəticəsiz qalmır və səbəbin göstərilməsi ilə işdən azad edilmə və bəzi hallarda cərimə və məhkəmə işlərinədək və bunlar daxil olmaqla, intizam tədbirləri ilə nəticələnə bilər. Görülən hər bir intizam tədbiri siyasət, təcrübə və yerli qanuna əsaslanacaqdır.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz Kodeksimizə əməl edirik

## Tapşırılmış tələbləri yerinə yetirmək.

Kodeks və ya siyasətlə bağlı tələb edilən bütün təlimləri, siyasət sertifikasiyasını və hər hansı başqa uyğunluq tələblərini vaxtında yerinə yetirin.

## Suallar verin.

Nə edəcəyinizlə bağlı hər hansı şübhəniz olarsa, Meneceriniz, İR və ya Hüquq və Uyğunluq departamentlərinin əməkdaşları ilə danışın. Yerli təcrübələrin Kodeksimizə zidd olduğu hallarda, həmişə daha ciddi tələbləri olanına əməl edin.

## Narahatlıqlarınızı paylaşın.

Yanlış davranış barədə xəbərdar olduğunuzda, bu cür davranışla qarşılaşdığınızda və ya onunla bağlı şübhəniz olduqda, bunu Weatherford şirkətinə bildirin. Narahatlığınızı paylaşdığınızda və şübhə edilən yanlış davranışla bağlı hər hansı araşdırma, yoxlama və ya sorğu-sual əsnasında tam və səmimi əməkdaşlıq etdiyinizdə düzgün davrandığınızdan və əxlaqlı iş yerini dəstəklədiyinizdən əmin olaraq çəkinmədən və qorxmadan danışın.

Səmimi şəkildə narahatlığını bildirən heç kəsə qarşı qisas cəhdlərinə göz yummayın. Weatherford heç zaman qisas hallarına yol vermir.

Ədalətli şəkildə mühakimə edin. Şirkətimizdə heç bir səviyyədə və heç kəsin sizi Kodeksimizi pozmağa vadar etmək hüququ yoxdur.

BU SUALLARIN HƏR HANSININ **XEYR** CAVABI OLARSA

HƏR HANSI TƏDBİR GÖRMƏZDƏN ÖNCƏ DAYANIN VƏ SORUŞUN.

**HƏR ƏXLAQ DİLEMMASI EHTİMALINI ÜNVANLAMAQ MÜMKÜN DEYİL. ƏMİN OLMADIQDA, ÖZÜNÜZDƏN SORUŞUN:**

| | | |
|---|---|---|
| Bu, qanuna uyğundurmu? | Bu davranış Kodeksimiz və siyasətlərimizdə yazılanlara (real sözlərə) və onların ruhuna (niyyətinə) uyğundurmu? | Qərarımın dərc edilməsi, yayınlanması və ya müştərilər, ailəm və dostlarımla paylaşılmasından narahat olardımmı? |





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ LİDERLƏRİMİZİN DAHA YÜKSƏK STANDARTLARA ƏMƏL ETMƏSİNİ GÖZLƏYİRİK

## ÖHDƏLİYİMİZ

Biz inanırıq ki, yalnız öz bildiyimiz kimi, yəni, səmimi və dürüst işləməyimizi təmin etmək üçün liderlərimiz, yəni, direktorlarımız, vəzifəli şəxslərimiz və menecerlərimiz əxlaqlı Weatherford şirkətinin baniləri olmalı, iş yerlərində hörmətcil davranışı təşviq etməli və əməkdaşları düzgün istiqamətləndirmə, alətlər, təlimlər və mühitlə təmin etməlidir.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Nümunə göstərərək rəhbərlik etmək.

Unutmayın ki, başqalarına əxlaqlı davranmağı öyrətməyin ən gözəl yolu hər gün onlara nümunə olmaqdır. Əməkdaşlarınız və həmkarlarımıza Kodeksimizə əsasən onlardan nə gözlədiyini anladan zaman təqlidəlayiq nümunə olun.

Kodeksimizdən istifadə edin və onu tez-tez istinad gətirin. Onun səmimi və dürüst biznes davranışı üçün faydalı resurs olduğunu nümayiş etdirin. Əməkdaşlarınız və həmkarlarınızın Kodeksimizlə bağlı təlimlər keçməsini təmin edin və onlarla birlikdə bu təlimlərə qatılın. Əməkdaşların performansını qiymətləndirən zaman Kodeksimizə nə dərəcədə əməl etdiklərini nəzərə alın.

Əməkdaşlarla ədalətli və bərabər qaydada, ləyaqət və hörmətlə rəftar edin; qeyri-iradi qərəzli düşüncələrinizi anlayın və idarə edin; müxtəliflik və inklüzivliyi təşviq edin; və rəhbərlik və idarə etdiyiniz şəxslərin işdə əməkdaşlıq münasibətlərini gücləndirin. Komandanızın hər bir üzvünün bilikləri, bacarıqları, səriştələri və təcrübələrini dəyərləndirin.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz



D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz liderlərimizin daha yüksək standartlara əməl etməsini gözləyirik

## Açıq qapı siyasətini tətbiq etmək.

Əməkdaşların rahatlıqla kömək üçün müraciət edə biləcəyi və qisa qorxusu olmadan narahatlıqlarını bildirəcəyi müsbət iş mühiti yaradın.

Məsələ qaldıran əməkdaşları dəstəkləyin. Onları narahat edən məqamları dinləyin, paylaşdıqları məlumatla həssas məlumat kimi rəftar edin və bu məlumatı yalnız həlli tapmaq üçün lazım olan şəxslərə açıqlayın.

## Müxtəlifliyi təşviq etmək.

Biz müxtəlifliyin dəyərləndirildiyi mədəniyyəti inkişaf etdiririk. Müxtəlif təcrübələr, perspektivlər və səriştələrə malik olan istedadlı insanları cəlb etmək, inkişaf etdirmək, təşviq etmək və bu cür insanlardan ibarət geniş dairə qurmaq üzərində çalışın. Müxtəlif işçi qüvvəsi yenilikçilik ruhunu yüksəldir və bizi müxtəlif müştəri bazaları və xidmət göstərdiyimiz müxtəlif cəmiyyətlərlə birləşdirir.

## Diqqətli olmaq.

Qeyri-əxlaqi olan və Kodeksimizi, siyasətlərimizi yaxud qanunu poza bilən, habelə Weatherford şirkətinin nüfuzuna xələl gətirə bilən hər hansı vəziyyətə müdaxilə edin və qarşısını alın. Dərhal müvafiq şəxsləri xəbərdar edin.

Kodeksimiz, siyasətimiz və ya qanuna əməl edilməsi ilə bağlı narahatlığını bildirən insanlardan heç zaman qisas almayın və başqalarının qisas almasına icazə verməyin.





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ NARAHATLIQLARIMIZI PAYLAŞIR VƏ BİLDİRİRİK

## ÖHDƏLİYİMİZ

Biz məsuliyyətə inanır və Weatherford şirkətində əxlaqın qorunması üçün əlimizdən gələni edirik. Biz cəsarətli olub, Kodeksimizi poza və ya Şirkətimizin, əməkdaşlarımızın və ya səhmdarlarımızın sağlamlığı, dayanıqlılığı və ya nüfuzuna xələl gətirə bilən davranışlar barədə məlumat veririk.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Şübhələnmək, meydan oxumaq, bildirmək.

Tam vicdanınızla Kodeksimizi, siyasətlərimizi və qanunu pozduğuna inandığınız davranış barədə açıq danışın və bildirin.

Davranışın Kodeksimiz, siyasətlərimiz və ya qanuna uyğun olması ilə bağlı hər hansı şübhəniz olduqda, meneceriniz, İR, Hüquq və Uyğunluq departamentlərinin əməkdaşları ilə danışın və ya Listen Up əxlaq və uyğunluq barədə məlumat sistemi vasitəsilə bildirin.

Uyğunluqla bağlı narahatlığınızı vicdanlı şəkildə bildirin. Təqdim etdiyiniz məlumat təsdiq edilmədikdə və ya təsdiq edilə bilmədikdə belə, tam səmimilikdə doğru və dəqiq məlumat təqdim etməyə çalışın. Vicdanlı olmaq düz olmaq məcburiyyəti mənasına gəlmir; vicdanlı olmaq baş verən halın yanlış olduğuna səmimi qəlbdən inanmanız və bilərəkdən səhv məlumat verməməyiniz deməkdir.

Kodeksin pozulduğuna inanan hər bir vəzifəli şəxs, direktor və ya əməkdaş qüvvədə olan qanunla icazə verilən çərçivədə dərhal baş hüquq məsləhətçisi ilə əlaqə saxlamalıdır. Bu narahatlıqların məxfi (məsələn, anonim) qalması tələb edilərsə, qüvvədə olan qanun, qaydalar və ya hüquqi təhqiqat prosedurlarına əsasən məxfiliyin qorunması üçün hər cür səy göstərilməlidir.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz narahatlıqlarımızı paylaşır və bildiririk

## 24/7 hesabat xidmətimizə çıxış.

*Listen Up* — əməkdaşlara, müştərilərə, təchizatçılara və digər maraqlı tərəflərə telefon və ya internet (www.listenupWFRD.com) vasitəsilə 120-dən çox dildə hər hansı uyğunluq problemlərini bildirməyə imkan verən üçüncü tərəf xidmətidir.

*Listen Up* ilə əlaqə saxladığınızda müvafiq tədbirləri və nəticələrin izlənməsini təmin etmək üçün adınızı və əlaqə məlumatınızı təqdim etməyiniz tövsiyə olunur, lakin qanunla icazə verildikdə anonim qalmağı seçə bilərsiniz. Listen Up vasitəsilə paylaşılan məlumatlar yoxlanması və araşdırılması üçün Şirkətimizin müvafiq əməkdaşlarına yönləndirilir. *Listen Up* sistemi vasitəsilə bildirdiyiniz məsələni internet yaxud telefonla izləmək və məsələ yoxlandıqda Şirkətimizin buna cavabı və ya suallarına baxmaq üçün sizə fərdi iş nömrəsi veriləcək.

## Məxfiliyinizin qorunacağından əmin olun.

Uyğunluqla bağlı narahatlıqların bildirildiyi bütün bəyanatlar ciddi qəbul edilir və sürətli, peşəkar və təfərrüatlı şəkildə icra edilir. Biz qanuna əsasən araşdırmalarımızı mümkün olan ən yüksək məxfilik dərəcəsi ilə həyata keçiririk.

## Araşdırmalar, auditlər və başqa yoxlamalarda bizimlə əməkdaşlıq edin.

Sizdən xahiş edildikdə, hər hansı araşdırmalar, auditlər və başqa yoxlamalarla və sorğularda iştirak edin. Weatherford şirkəti (Hüquq və Uyğunluq departamenti, İR, KSTƏM və ya başqa şöbə və ya vəzifəli şəxslər) yaxud dövlət orqanlarının tələb etdiyi bütün məlumatları təmin edin. Kənar müstəntiq və ya səlahiyyətli orqan sizinlə əlaqə saxladığı halda, Hüquq və Uyğunluq departamentinə məlumat verin.

Heç vaxt yalan, yanıltıcı və ya natamam ifadələr verməyin və ya başqalarını buna təşviq etməyin. Yalnız şəffaf və vicdanlı cavablar verin.

## Məlumat verdikdən sonra...

Təhqiqatın statusunu öyrənmək və ya sahib olduğunuz hər hansı əlavə məlumatı bildirmək üçün yenidən əlaqə saxlaya bilərsiniz.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ QİSASA YOL VERMİRİK

## ÖHDƏLİYİMİZ

Biz Şirkətimizin hər səviyyəsində çalışan hər bir kəsin uyğunluqla bağlı narahatlığını qorxmadan bəyan edə bildiyindən əmin olmasını istəyirik. Məhz bu cür cəsarət bizə problemləri mümkün qədər tez müəyyən etməyə və düzəltməyə və əxlaqlı Weatherford kimi yaratdığımız nüfuzu qorumağa imkan verir. Biz vicdanla narahatlığını bildirən heç kəsdən qisas alınmasına yol vermirik və qisasla bağlı sıfır tolerantlıq siyasətimiz var. Qisasa hədələmə, qorxutma, kənarlaşdırma, alçaltma və iş zamanı başqa daha aydın mənfi hərəkətlər daxil ola bilər. Biz direktorlar, vəzifəli şəxslər, menecerlər və hər hansı başqa Weatherford liderlərindən və bütün əməkdaşlardan heç zaman heç kəsdən qisas almamaq və ya başqalarına qisas almaq imkanı verməməklə öhdəliyimizə əməl etməyi tələb edirik.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Heç zaman qisas almayın.

Qisas sayıla biləcək davranışlara qarşı diqqətli olun və hətta başqalarına qarşı qisas hissini belə aradan qaldırmaq üçün tədbirlər görün.

### Qisasdan qorxmayın.

Uyğunluqla bağlı narahatlıqlarınızı vicdanla paylaşdığınıza və ya faktiki və ya şübhəli qanun pozuntuları, Kodeksimizin, siyasətlərimizin və ya qanunun pozulması ilə bağlı audit və ya təhqiqatlarda iştirak etdiyinizə görə Weatherford şirkətinin sizdən hər hansı şəkildə qisas alınmasına yol verməyəcəyini bilərək irəli addım atın.

Uyğunluqla bağlı narahatlığını bildirdiyinə görə sizdən və ya tanıdığınız birindən qisas alındığına inanırsınızsa, meneceriniz, İR və ya Hüquq və Uyğunluq departamenti ilə əlaqə saxlayın.



Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ KÖMƏK ÜÇÜN HARAYA MÜRACİƏT ETMƏLİ OLDUĞUMUZU BİLİRİK

| Mövzu | Əlaqə seçimləri |
|---|---|
| İş yerində şikayətlər* | Birbaşa Menecer<br>İnsan Resursları<br>Əmək Münasibətləri<br>Hüquq və Uyğunluq departamenti<br>Listen Up (www.ListenUpWFRD.com) |
| Kodeks, siyasətlər, standartlar, biznes təcrübələri və ya qanunların hər hansı pozulmaları | Birbaşa Menecer<br>İnsan Resursları<br>Hüquq və Uyğunluq departamenti<br>Listen Up |
| Keyfiyyət, səhhət və ya təhlükəsizliklə bağlı narahatlıqlar | KSTƏM departamenti |
| Təhlükəsizliklə bağlı narahatlıqlar | Təhlükəsizlik departamenti |

* İş yerində şikayət etmək variantları barədə ətraflı məlumat almaq üçün Weatherford şirkətinin normativlərinə nəzər salın.

Nəzərə alın ki, Kodeksdə qeyd edilənlərin heç biri müvafiq əmək qanunlarına əsasən heç bir hüquq və ya öhdəlik yaratmamalı, habelə əməkdaşların əmək haqqı və başqa əmək şərtləri ilə bağlı hüquqlardan imtina və müzakirə fəaliyyətində iştirak hüququnu məhdudlaşdırmamalıdır. Direktorlar və icraçıların Kodeksimizə əməl etməmək hüququ yalnız Direktorlar şurası (və ya şuranın alt komitəsi) tərəfindən yazılı şəkildə təsdiq edilə bilər və bu, qanunla tələb edildiyi halda və ya müvafiq olduqda Nasdaq fond bazarının qaydalarına əsasən dərhal ictimaiyyətə açıqlanacaqdır. Digər işçilərin bu Kodeksə əməl etməmək hüququ yalnız Baş İcraçı Direktorumuz tərəfindən təsdiq edilə bilər və bu barədə Audit Komitəsinə bildiriləcəkdir.



D00143657 1 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# İNSANLARIMIZ VƏ PLANETİMİZ

“Fərq yaratmaq mənim əlimdədir.”






Vədimiz

İnsanlarımız və Planetimiz

Şirkətimiz

Münasibətlərimiz və Sənayemiz





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ BAŞQALARINA HÖRMƏTLƏ YANAŞIRIQ

## ÖHDƏLİYİMİZ

Biz mədəniyyətlərin və imkanların zəngin toplusunu bir araya gətirmək üçün iş yerimizdə müxtəliflik yaratmağa çalışırıq. Biz bir-birimizə və qanunlara hörmət edir və yalnız işimizin nəticəsini təkmilləşdirən deyil, eyni zamanda təhlükəsiz, inklüziv, əxlaqi və hörmətcil iş yeri yaradan münasibətlər qururuq. Biz məşğulluqla bağlı qərarların müvafiq kvalifikasiya, xidmət, performans və işlə bağlı əsas amillərə əsaslanmasını təmin edirik. Heç bir ayrı-seçkiliyə yol verilmir.

## SİZİN MƏSULİYYƏTİNİZ

### İnklüziv və ehtiramlı olun.

Hər kəsin özünü dəyərli və hörmətli hiss etməsini təmin etmək üçün qlobal təşkilatımızda müxtəlif insanların unikal istedadları, səriştələri və təcrübələrindən istifadə edin. Əsas dəyərlərimizə sadiq qalaraq inklüziv mühit yaradın və bu mühiti qoruyun.

İrqi, etnik mənsubiyyəti, dini, cinsi, yaşı, əqli və ya fiziki qüsuru, veteran statusu, milli mənşəyi, cinsi oriyentasiyası və ya qüvvədə olan qanunla qorunan hər hansı digər xüsusiyyətlər də daxil olmaqla, hər hansı səbəbdən hər hansı bir şəxsə qarşı ayrı-seçkiliyi və ya təqibi qadağan edin.

İşə qəbul, təlim, təşviqat, əmək haqqı, müavinət və məşğulluqla bağlı digər təcrübələrə dair qərarları qanuni biznes ehtiyaclarına və fərdin iş qabiliyyətlərinə əsasən qəbul edin.

Missiyamıza hörmətlə yanaşın və həmkarlar, müştərilər və ya biznes tərəfdaşları olmasından asılı olmayaraq əməkdaşlıq etdiyiniz insanların müxtəlifliyini mədh edin.

Bərabər imkanlar, işlə bağlı qərarlarda ədalətlilik, habelə əməkdaşların əlilliyi və ya qanuni inanc və ya təcrübələrinə uyğun ağlabatan şəraitin təmin edilməsi öhdəliyimizə hörmətlə yanaşın. Menecer vəzifəsindəsinizsə, zorakılığın və təqibin qarşısının alınmasına yönəlmiş təlimlər daxil olmaqla, bütün tələb olunan təlimləri keçin.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz başqalarına hörmətlə yanaşırıq

## Aşağıdakıları edin

- İşinizi yerinə yetirərkən həmkarlarınıza, müştərilərinizə və ictimaiyyət nümayəndələrinə qarşı peşəkar və hörmətcil şəkildə davranın.
- İşə qəbul və insan resurslarının idarə edilməsi ilə bağlı qərarları yalnız xidmət, performans və işgüzarlıq əsasında qəbul edin.
- Aşağıdakı hallarda məlumat verin:
  - Başqalarına qarşı ayrı-seçkilik, qisas, təqib, ədavət, hədələmə, alçaltma davranışı və ya başqa şəkildə Kodeksi və ya Weatherford şirkətinin hər hansı siyasəti, standartı və ya iş təcrübələrini pozan davranışlardan xəbərdar olduğunuzda.
  - Ayrı-seçkilik, təqib, təhqiramiz davranış və ya zorakılıq davranışı barədə məlumatınız olduqda, bu cür davranışı müşahidə etmiş və ondan şübhələnmiş olduğunuzda.

## Aşağıdakıları etməyin

- Başqalarına qarşı hörmətsiz davranmayın.
- Başqalarını fiziki və ya şifahi şəkildə hədələməyin, təqib etməyin və ya alçaltmayın.
- Həssas və ya yersiz zarafatlar və ya şərhlər etməyin.
- Qorxuducu, ədavətli və ya təhqiredici iş mühiti yaradacaq şəkildə davranmayın.
- Heç kəsi təhdid və təhqir etməyin və ya mənfi stereotiplər yaratmayın.
- Fotoşəkillər də daxil olmaqla, təhqiredici və ya alçaldıcı materiallar paylaşmayın və nümayiş etdirməyin.

Kodeksimizin bu bölməsində və ya siyasətlərimiz, standartlarımız yaxud biznes təcrübələrimizin hər hansı birində qeyd edilənlərin heç biri əmək haqqı və ya digər məşğulluq şərtləri ilə bağlı müzakirələr də daxil olmaqla, qanunla qorunan fəaliyyətlərlə məşğul olmaq hüququnuzu məhdudlaşdırmaq və ya müdaxilə etmək məqsədi daşımır.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ WEATHERFORD ŞİRKƏTİNİN TƏHLÜKƏSİZLİYİ VƏETİBARLILIĞINI TƏŞVİQ EDİRİK

## ÖHDƏLİYİMİZ

Təhlükəsiz və qorunan iş mühiti yaratmaq, həmçinin bir-birimizə və ailələrimizə təhlükəsiz işləmə vədi verməsk kimi mənəvi və hüquqi öhdəliyimiz vardır. Biz sağlamlıq, təhlükəsizlik, mühafizə, ətraf mühit və davamlılıq sahəsində ən yüksək standartlara əməl edirik. Weatherford şirkətindəki işiniz heç zaman təhlükəsizliyə diqqət yetirmədən icra ediləcək qədər təcili və ya mühüm deyil.




## SİZİN MƏSULİYYƏTİNİZ

### Təhlükəsizliyi ön planda tutmaq.

İş yerində və iş sahəsində hər kəsin təhlükəsizliyini və mühafizəsini təşviq edin. İşinizlə bağlı dərc edilmiş təhlükəsizlik prosedurları daxil olmaqla, sağlamlıq, təhlükəsizlik, mühafizə, ətraf mühit və davamlılığa dair bütün tətbiq olunan siyasət və qanunlara əməl edin. Yeni əməliyyatlara başlamazdan, yeni məhsullar layihələndirməzdən əvvəl və iş planlaması və işin icrası əsnasında sağlamlıq, təhlükəsizlik, mühafizə və ətraf mühitlə bağlı riskləri nəzərə alın. Weatherford şirkətinin Sağlamlıq və Təhlükəsizlik Proqramı, *EightGems*® və Mühafizə Proqramında verilmiş "Əməl edilməli olan qaydalara" riayət edin. *EightGems*® və Mühafizə Proqramının tələblərinə əməl edilməsi rəhbərliyin performans yoxlamalarının bir hissəsi kimi izlənir və qiymətləndirilir.





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz Weatherford şirkətinin təhlükəsizliyi və etibarlılığını təşviq edirik

## Aşağıdakıları edin

- Ətrafınızda baş verənlərə diqqət edin.
- KSTƏM tələblərini ehtiva edən iş təlimatlarına əməl edin.
- Bütün təhlükəsizlik prosedurlarına əməl edin və işlədiyiniz sahədəki evakuasiya planı ilə tanış olun.
- Fövqəladə hallara cavab planınız və qəza xilasolma yolları, ilk yardım qutuları və dağılan maye toplama vasitələri ilə tanış olun.
- İşi dayandırma səlahiyyətinizdən istifadə edərək özünüz və ya başqalarının xəsarət almasının qarşısını alın və tapşırığın yerinə yetirilməsi zamanı düzgün qoruyucu vasitələrdən istifadə edin.
- Bütün təlim tələblərinə əməl edin.
- Problemləri və təkmilləşdirmə imkanlarını qeydə almaq üçün RADAR® kartlarından istifadə edin.
- Hər hansı bir təhlükəli vəziyyət, xəsarətlər, əmlaka dəyən zərər və ya iş yerində zorakı davranışlar (və ya təhdidlər) barədə Weatherfor şirkətinə məlumat verin.
- Səyahətlərlə bağlı köməklik üçün Qlobal təhlükəsizlik bölməsi ilə əlaqə saxlayın.
- Xaricə səfər edərkən bütün tələb edilən vizaları alın. Bu vizaları əldə etmək səfər edən şəxsin məsuliyyətidir. Köməklik üçün İR departamenti ilə əlaqə saxlayın.

## Aşağıdakıları etməyin

- Səlahiyyətiniz olmayan işi üzərinizə götürməyin.
- Hər hansı sağlamlıq, təhlükəsizlik, mühafizə və ətraf mühit risklərinə saymazlıq etməyin.
- Şirkətin binalarında və ya fəaliyyət göstərdiyi hər hansı obyektlərdə hər hansı zorakılığı, zorakılıq hədələrini, hədələmələri, qisası, təxribatı və ya təqiblərə yol verməyin.
- İş yerində narkotik vasitələrdən istifadə edilməsinə göz yummayın.
- Spirtli içkilər, qeyri-qanuni narkotik vasitələrin yaxud sui-istifadə edilən dərman və ya preparatların təsiri altında işləməyin və ya onları Şirkətə gətirməyin.
- Weatherford şirkətinin obyektlərində üzərinizdə silah daşımayın.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz
ƏVVƏLKİ NÖVBƏTİ


D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ ŞƏXSİ MƏLUMATLARI QORUYURUQ

## ÖHDƏLİYİMİZ

Weatherford daxilində və xaricindəki insanlar öz şəxsi məlumatlarını ehtiyatla idarə etməyi və onlardan lazımi şəkildə istifadə etməyi bizə etibar edir. Biz əməkdaşlarımızın, müştərilərimizin və digər üçüncü tərəflərin məxfilik hüququna hörmət edir və şəxsi məlumatlardan yalnız səmərəli fəaliyyət göstərmək, nəzərdə tutulmuş məqsədlər üçün və qanuna uyğun olaraq lazım olduqda istifadə edirik.

## ŞƏXSİ MƏLUMAT NƏ DEMƏKDİR

Hər hansı şəxsə dair ünvan, telefon nömrəsi, fotoşəkil, təvəllüd, olduğu yer barədə məlumat, performans rəyləri, təhsil, sürücülük vəsiqəsinin nömrəsi, bank və ya əmək haqqı barədə məlumatlar, eyniləşdirmə nömrəsi, səhhəti və ya tibbi tarixçəsi kimi hər hansı məlumatlar yaxud şəxsin fiziki, psixoloji, genetik, əqli, iqtisadi, mədəni və ya sosial şəxsiyyətinə dair bir və ya daha çox amil.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Məlumatı yaxşı idarə etmək.

Başqalarının şəxsi məlumatlarını idarə etməzdən əvvəl başqalarının sizin şəxsi məlumatlarınızı necə idarə etməsini istədiyinizi düşünün.

### Aşağıdakıları edin

- Hansı məlumatların "şəxsi məlumatlar" hesab edildiyini bilin.
- Şəxsi məlumatları məxfilik siyasətlərimizə və qüvvədə olan qanunlara uyğun olaraq toplayın, saxlayın, istifadə edin, açıqlayın, köçürün və açıqlayın.
- Şəxsi məlumatlardan yalnız nəzərdə tutulan məqsədlər üçün istifadə edin.
- Şəxsi məlumatlarla bağlı hər hansı qayda pozuntusu barədə bildirin.

### Aşağıdakıları etməyin

- Xüsusi məqsəd üçün lazım olandan çox şəxsi məlumat toplamayın və ya şəxsi məlumatları lazım olduğundan çox müddətə saxlamayın.
- Paylaşıma icazə verildiyi və lazım olduğu hallar istisna olmaqla, heç bir halda şəxsi məlumatları Weatherford daxilində və ya xaricində heç kəslə paylaşmayın.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ DAYANIQLI ŞİRKƏTİK

## ÖHDƏLİYİMİZ

Bizim əxlaqlı, sosial məsuliyyətli və ətraf mühitə qarşı dayanıqlı şəkildə fəaliyyət göstərmək öhdəliyimiz var. Biz eyni zamanda Universal İnsan Resursları Bəyanatı və Beynəlxalq Əmək Təşkilatının əsas standartlarına etimad edən şəkildə fəaliyyət göstərmək öhdəliyinə sahib olub, təsir sahəmiz daxilində insan hüquqlarının qorunmasını təmin etməyə çalışırıq. Biz öz həyat tərzimizi və gələcək nəsillərin həyatlarını qoruyub saxlamaq üçün ətraf mühiti qorumaq öhdəliyinə sahibik.

Mubahisəli minerallardan əldə edilən gəlir, həddindən artıq zorakılıq və insan haqlarının pozulması ilə məşqul olan qrupların maliyyələşdirilməsi ilə əlaqələndirilir. Biz xammal tədarükçüləri, eləcə də ehtiyat hissələri və komponent təchizatçıları ilə sıx əməkdaşlıq edir və onların bütün qüvvədə olan qanunlara, o cümlədən mübahisəli olmayan mineralların təmin edilməsinə dair qanunlara əməl edəcəyinə dair gözləntilərimizi bildiririk.

İnsan hüquqları ilə bağlı öhdəliyimiz haqqında ətraflı məlumat almaq üçün vebsaytımızda verilən Müasir Köləlik Bəyannaməsi və Kaliforniya Təchizat Zəncirləri Qanununun Açıqlanmasına baxın.

## SİZİN MƏSULİYYƏTİNİZ

### İnsanlara hörmətlə yanaşmaq.

Başqaları ilə ədalətli, müvafiq, inklüziv şəkildə davranın və onların hüquq və öhdəliklərinin qorunmasına hörmətlə yanaşın. İş yerinizdə insan hüquqları ilə bağlı problemləri anlayın və yeni əməliyyatlara və ya layihələrə başlamazdan əvvəl onların mümkün nəticələri və idarəetmə ehtiyaclarını nəzərə alın. Weatherford şirkətinin siyasətləri, standartları, biznes təcrübələri və qanuna hər zaman əməl edin. İş yerində müxtəliflik öhdəliyimizə hörmətlə yanaşın.

Əmək və immiqrasiya ilə bağlı bütün qanunlara riayət edin. Əlavə iş saatları, nahar fasilələri və dincəlmə fasilələri ilə bağlı ödəniş və saat tələblərinə əməl edin. Əgər menecersinizsə, bütün əməkdaşların müvafiq iş icazələrinə malik olduğundan əmin olun. Uşaq əməyi, əməkçi hüquqları və gücün birləşdirilmə azadlığına dair yerli gözləntiləri anlayın. İcbari iş, insan alveri və ya hər hansı şəxsin, o cümlədən uşaqların ekspluatasiyası ilə məşqul olan insanlarla heç bir biznes münasibətlər qurmayın. İnsan hüquqlarına dair beynəlxalq səviyyədə tanınmış standartları və insan hüquqlarının pozulmasına sıfır tolerantlığı təşviq edən iş mədəniyyəti yaradın.

Təchizatçılara Təchizatçılar üçün davranış kodeksinə və bu kodeksin insan hüquqları ilə bağlı müddəalarına əməl etmək öhdəliklərini xatırladın.

Şübhə edilən sui-istifadə halını bildirin.

Karyeranın planlaşdırılması, səriştələrin artırılması, gənc təcrübəçilərin cəlb edilməsi və üfüqlərin genişləndirilməsi yolu ilə istedadlı insanları işə cəlb edin.





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz dayanıqlı şirkətik

## Planetimizə hörmətlə yanaşmaq.

Weatherford fəaliyyəti ilə məşqul olarkən ətraf mühitin mühafizəçisi olun. Yeni əməliyyatlar planlaşdırarkən, məhsullar layihələndirə və istifadə edərkən, xidmətlər göstərərkən, obyektlər əldə edə və ya boşaldarkən ətraf mühitə təsirimizi azaltmaq və ekoloji cəhətdən məsuliyyətli qərarlar qəbul etmək yollarını axtarın. Weatherford şirkətinin ətraf mühitlə bağlı məqsəd və hədəflərini anlayın və onlara cavab verin və ya onları aşın.

Ətraf mühitə dair yerli qaydaların tələblərinə, eləcə də bizim ətraf mühit standartlarımıza və Four Tenets™ Ətraf Mühit proqramımızın aşağıdakı Yaşamaq Qaydalarına əməl edin:

- Tullantıları səmərəli şəkildə idarə edin.
- Sudan qənaətlə istifadə edin.
- Torpağa təsiri azaldın.
- Enerjidən istifadəni ciddi şəkildə azaldın.

## Yerli cəmiyyətlərimizi anlayın.

İşlədiyimiz cəmiyyətin ehtiyaclarını müəyyən edin. Zaman, istedad və ya vəsaitin müsbət təsir göstərə biləcəyi imkanları axtarın.

## İştirak edin.

Weatherford şirkəti üçün yeni cəmiyyətyönümlü, sosial və biznes məsuliyyətli imkanları müəyyənləşdirin və razılaşdırın.

Weatherford tərəfindən maliyyələşdirilən cəmiyyət layihələrinə və yerli cəmiyyətlərimizdə həyat keyfiyyətini yaxşılaşdırmaq üçün nəzərdə tutulmuş xeyriyyəçilik təşəbbüslərinə qoşulun.

Cəmiyyət, könüllülük, xeyriyyəçilik və siyasi fəaliyyətlərdə şəxsi səviyyənizdə iştirak edin, lakin şəxsi fəaliyyətinizi təşviq etmək üçün Weatherford şirkətinin vəsaitləri, aktivləri, vaxtı və ya adından istifadə etməyin. İştirakınızın qanuni və siyasətlərimizə uyğun olduğundan əmin olun və şəxsi baxışlarınız və hərəkətlərinizin Weatherford şirkətini təmsil etmədiyini aydın şəkildə bəyan edin.

## Siyasi ianə sorğularını rədd edin.

Weatherford şirkət olaraq siyasi cəhətdən neytraldır. Weatherford şirkətinin vəsaitindən və ya adından istifadə edərək siyasi partiyalara, liderlərə və ya namizədlərə ianələr etməyin.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03



# ŞİRKƏTİMİZ

"Biz bilirik ki, bugünkü hərəkətlərimiz sabahımıza və gələcəyimizə təsir edir."


Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ İŞİMİZİN KEYFİYYƏTİ İLƏ FƏXR EDİRİK

## ÖHDƏLİYİMİZ

Biz gördüyümüz işin keyfiyyəti ilə fəxr edirik və layihələndirmədən yayılmaya qədər əməliyyatlarımızın hər mərhələsində keyfiyyəti təşviq edirik. Biz yüksək performanslı məhsullar, xidmətlər və texnologiyaların sadəcə biznesimizi deyil, həm də gələcəyimizi idarə etdiyini anlayır və bu səbəbdən yüksək standartları qorumaq məsuliyyətini şəxsən üzərimizə götürürük.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Keyfiyyət üzərində təkid edin.

Hər gün ən yüksək səviyyəli məhsullar, xidmətlər və texnologiyalar çatdırmaqla öhdəliyinizi nümayiş etdirin.

### Səviyyə həddini qaldırın.

Aşağıdakılar daxil olmaqla, bütün keyfiyyətə nəzarət standartlarına əməl edin:

- Qüvvədə olan qanun və qaydalar.
- Daxili nəzarət prosedurları.
- Həm müqavilə üzrə xüsusiyyətlər, həm də müştərinin daxili xüsusiyyətləri.

Təchizatçılarımızın da bizim kimi yüksək standartlarımıza əməl etməsini tələb edin.

### Əlinizi qaldırın.

Bütün qanunlara tam riayət edin və işin keyfiyyətinə mənfi təsir göstərə bilən hər hansı məsələ və ya narahatlıqlarınızı bildirin.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ AKTİVLƏRİMİZİ MÜHAFİZƏ EDİRİK



## ÖHDƏLİYİMİZ

Biz Weatherford aktivlərindən Weatherford biznesi üçün istifadə etməli və onları itki, zədə, sui-istifadə, oğurluq, israf, fırıldaqçılıq və sui-istifadədən qorumalı olduğumuza inanırıq. Biz qorunub saxlanması, mühafizə və düzgün idarə olunmasını üçün bizə əmanət edilmiş əmlaka, texnologiyaya, sistemlərə, avadanlıqlara, məlumatlara və qurğulara etimadla yanaşırıq.

Bizim maraqlarımıza xələl gətirmədiyi və ya sizin və ya həmkarlarınızın iş performansına təsir etmədiyi təqdirdə, texnoloji aktivlərimizdən nadir hallarda şəxsi məqsədlərlə istifadə edilməsinə icazə verilir. Unutmayın ki, Weatherford tərəfindən sizə təqdim edilmiş texnoloji aktivlərin (kompüter, telefon və s.) istifadəsi Kompüterdən İstifadə və Məxfilik siyasətlərimizə və qüvvədə olan qanunlara uyğun olaraq izlənilə bilər.

## ŞİRKƏTİN AKTİVİ NƏDİR

Fiziki əmlak, elektron/texnoloji aktivlər, informasiya aktivləri və əqli mülkiyyət daxil olmaqla, şirkət üçün dəyəri olan və şirkətə məxsus olan maddi və ya qeyri-maddi hər şey.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Maddi aktivlərimizi mühafizə etmək.

Onlardan Weatherford şirkətinin fəaliyyət göstərməyi seçdiyi yerlərdə nəzərdə tutulduğu kimi istifadə edin. Onları təhlükəsiz saxlayın və mühafizə edin, həmçinin hər hansı sui-istifadə və ya saxtakarlıq halları barədə bildirin. Müvafiq icazə olmadan Weatherford obyektlərindən əmlak götürməyin və çıxarmayın və şəxsi fəaliyyətlərinizi dəstəkləmək üçün aktivlərimizdən istifadə etməyin.

### AKTİVLƏR AŞAĞIDAKI FORMALARDA OLA BİLƏR:



**Fiziki:** obyektlər, cihazlar, ofis ləvazimatları, avadanlıqlar, alətlər, materiallar, nəqliyyat vasitələri



**Elektron:** avadanlıqlar, proqram təminatları, e-poçt, səsli poçt, informasiya texnologiyaları



**Məlumat:** şəxsi məlumatlar, müştərilərin buruq məlumatları, tədqiqat və inkişaf planları, məhsul dizaynları və ya çertyojları, texniki məlumatlar, marketinq planları, müştəri siyahıları, xərclər, verilənlər, cədvəllər və proseslər




**Əqli mülkiyyət:** patentlər, ticarət nişanları, müəllif hüquqları, ticarət sirləri, xidmət nişanları




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz aktivlərimizi mühafizə edirik

## Elektron aktivləri mühafizə etmək.

İnformasiya texnologiyaları sistemlərindən məsuliyyətli şəkildə istifadə edin.

İstifadəçi ID-ləri və şifrələri qoruyun. Onları digər Weatherford əməkdaşları, ailə üzvləriniz və ya müştərilər daxil olmaqla, heç kəslə paylaşmayın.

Viruslar və boşdurmaların qarşısını alın. İcazəsiz tətbiqlər və ya cihazlar vasitəsilə şəbəkəmizə daxil olmayın. İcazə verilməyən proqram təminatı və ya tətbiqləri Şirkətin kompüterlərinə endirməyin və ya icazə verilməyən avadanlıq və yaddaş cihazlarını bu kompüterlərə qoşmayın.

Sizə verilən hər bir avadanlığı fiziki şəkildə qoruyun və başqalarının onlardan icazəsiz istifadə etməsinə imkan verməyin.

Avadanlığınızda quraşdırılmış proqram təminatının müəllif hüquqlarına hörmətlə yanaşın. Proqram təminatını müəllif hüquqları və ya müvafiq lisenziya şərtlərini pozacaq şəkildə ikiləşdirməyin, quraşdırmayın və ya istifadə etməyin.

Əvvəlcə İnformasiya Texnologiyaları departamentindən icazə almadan Şirkətdə istifadə etmək üçün hər hansı avadanlıq və ya proqram təminatı satın almayın.

## Məlumat aktivlərimizi mühafizə edin.

Məxfi və şəxsi məlumatları yalnız istifadə səlahiyyəti və işlərini icra etmək üçün ehtiyacı olan şəxslərə açıqlayın. Yalnız Weatherford şirkətinin məlumatlarına deyil, həm də həmkarlarımızın, müştərilərimizin, təchizatçılarımızın, rəqiblərimizin və digər üçüncü tərəflərin məxfi, mülkiyyət və şəxsi məlumatlarına hörmətlə yanaşın.

Bizim əqli mülkiyyətimizə və başqalarının əqli mülkiyyətinə hörmətlə yanaşın. Bizim əqli mülkiyyətimiz uzun illərlə davam edən işin nəticəsidir və yalnız lazımlıq əsasında paylaşılmalıdır. O, Şirkətin siyasətlərinə və qüvvədə olan qanun və qaydalara uyğun olaraq qorunmalı olan əhəmiyyətli sərmayələri təmsil edir.

Başqalarının eşidə biləcəyi lift, təyyarə və restoran kimi ictimai yerlərdə Şirkətin ticarət sirlərini və ya qeyri-ictimai mülkiyyətə dair məlumatları müzakirə etməyin. Məxfi tədqiqatlar və ya ideyaları Şirkətimizə aid olmayan şəxslərlə müzakirə etməyin.

Məxfi və mülkiyyət məlumatlarını ömür boyu qorumağa çalışın. Siz məlumat əldə etmək üçün deyil, təhsilinizə, bacarıqlarınıza və təcrübənizə əsaslanaraq işə qəbul edilmisiniz. Keçmiş iş yerinizdə dair məxfi və ya şəxsi məlumatları bizimlə paylaşmayın və Weatherford şirkətindən ayrıldığınızda, yeni iş yerinizdə Weatherford şirkətini məxfi məlumatını heç kəsə açıqlamayın.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz


D00143657 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz aktivlərimizi mühafizə edirik

## Qeydlərimizi məsuliyyətlə idarə edin.

Weatherford qeydlərin idarəetmə təcrübələrinə hörmət və etimad edin və qoruma və ya istifadə etmə təlimatlarının hamısına əməl edin. Qeydləri saxlama siyasətlərimizə, cədvəllərimizə və qanunlarımıza uyğun olaraq qeydləri idarə edin, tutun, qoruyun, saxlayın və istifadə edin. Nəyin tələb olunduğundan əmin deyilsinizsə, menecerinizlə əlaqə saxlayın. Qanuna əsasən saxlanmalı olan heç bir qeydi məhv etməyin, gizlətməyin və ya dəyişdirməyin.

### QANUNA ƏSASƏN SAXLANMA NƏDİR

Şirkət məhkəmə işinə cəlb edilmiş olduqda və ya edilə bildiyi halda verilən və məhkəmə işinə dair heç bir qeydin məhv edilməməsi üçün adi saxlama müddətinin dəyişdirilməsini tələb edən bildiriş.





D00[illegible] (A.3) PMTD - VAQUERA, AMY N 2024-04-03



Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz

# BİZ WEATHERFORD BARƏDƏ KOMMUNİKASİYALARIMIZDA EHTİYATLI DAVRANIRIQ

## ÖHDƏLİYİMİZ

Weatherford şirkətinin adı aşağıdakıları təmsil etdiyindən biz onu qorumaq üçün əlimizdən gələni etməliyik:

- Səhmdarlarımız və onların sərmayələri.
- İnsanlarımız və onların yaxşı gördüyü işlər.
- Müştərilərimizin bütün dünya üzrə obyektlərimizdə nümayiş etdirdiyimiz performansa olan etibarı.

Şifahi, yazılı və ya rəqəmsal olmasından asılı olmayaraq, bütün biznes kommunikasiyalarda biz sağlam mühakimə tətbiq edirik.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Bir səslə danışmaq.

Weatherford adından səlahiyyətsiz danışmayın, əksinə bütün media sorğuları və Weatherford haqqında məlumatla bağlı ictimai sorğuları İnverstor münasibətləri və Korporativ kommunikasiyalar bölməsinə yönləndirin.

Siz telefon zəngi, sms mesajı, e-poçt və ya sosial şəbəkə vasitəsilə KİV-lərindən sorğular ala bilərsiniz. KİV ilə ünsiyyət zamanı Weatherford şirkətinin tək səslə çıxış etməsi vacibdir. Bu səbəbdən, ictimaiyyətə, tənzimləyici orqanlara və başqalarına aydın, ardıcıl və dəqiq məlumatın çatdırılmasını təmin etmək üçün yalnız Weatherford şirkətinin səlahiyyətli nümayəndələri Weatherford şirkətinin adından danışa bilər.





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz Weatherford barədə kommunikasiyalarımızda ehtiyatlı davranırıq

## Sosial mediadan məsuliyyətli şəkildə istifadə edin.

Gizlilik və məxfilik, həmçinin müəllif hüququ, ticarət nişanı və maliyyə məlumatlarının açıqlanması ilə bağlı siyasətlərimizə və bütün qanunlara əməl edin.

Weatherford haqqında yalan və ya əsassız iddialar irəli sürməyin. Fəaliyyətimizlə bağlı dərclər etdikdə, lakin bizim adımızdan danışmaq səlahiyyətiniz olmadıqda, özünüzü əməkdaş kimi təqdim etdiyinizdən əmin olun və fikirlərinizin Weatherford şirkətinə deyil, şəxsən sizə aid olduğunu bildirin.

Hər bir sayt, sosial şəbəkə və ya cəmiyyət tərəfindən müəyyən edilmiş sərhədləri, şərtləri, qaydaları və ya təlimatları pozmayın.

Sosial media şəbəkəsindən istifadənizin işinizə müdaxilə etməsinə icazə verməyin və sosial media şəbəkəsində Weatherford şirkətinə aid edilə bilən açıqlamalar verməyin.

Kodeksimizin bu bölməsində və ya siyasətlərimizin hər hansı birində qeyd edilənlərin heç biri əmək haqqı və ya digər məşğulluq şərtləri ilə bağlı müzakirələr də daxil olmaqla, qanunla qorunan fəaliyyətlərlə məşğul olmaq hüququnuzu məhdudlaşdırmaq və ya müdaxilə etmək məqsədi daşımır.

## Bütün kommunikasiyalarınız zamanı ehtiyatlı olun.

Weatherford daxilində və ya xaricində olan insanlarla ünsiyyət qurarkən ünsiyyətinizin həm lazımlı, həm də müvafiq olduğundan əmin olun. Qeyri-rəsmi və ya rəsmi olmasından asılı olmayaraq, heç bir ünsiyyət heç vaxt siyasətimizi və ya qanunlarımızı pozmamalıdır. Heç vaxt başqalarını təhqir etməyin, qeyri-müvafiq və ya qeyri-qanuni heç nə yazmayın, ötürməyin və ya izləməyin yaxud şəbəkə istifadəçiləri, xidmətlər və ya avadanlıqlara müdaxilə etməyin.

Kommunikasiyalarınızın özəl olduğunu düşünməyin. Kompüterlərdən istifadə və Məxfilik siyasətlərimizə və qüvvədə olan qanuna əsasən sistemlərimiz vasitəsilə yaratdığınız, göndərdiyiniz və ya qəbul etdiyiniz bütün məlumatlara Weatherford tərəfindən çıxıla, izlənə və ya yoxlana bilər.





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ MALİYYƏ QEYDLƏRİMİZİ DƏQİQLİKLƏ APARIRIQ

## ÖHDƏLİYİMİZ

Mühasibat uçotlarımız və qeydlərimiz şirkət olaraq kim olduğumuzun dəqiq təsvirini əks etdirməlidir. Biz yalnız maliyyə bütövlüyünü deyil, həm də etibarı və şəffaflığı qorumaq üçün Weatherford tələblərinə və qüvvədə olan qanunlara əməl edirik.

Weatherford və səhmdarlarımız adından hazırlanan və ya Qiymətli Kağızlar və Birja Komissiyasına təqdim edilən hesabatlarda və sənədlərdə və Şirkət tərəfindən bəyan edilən digər ictimai məlumatlarda tam, ədalətli, dəqiq, vaxtında və başa düşülən açıqlamanın təmin edilməsi üçün direktorlarımız, vəzifəli şəxslərimiz və əməkdaşlarımız da məsuliyyət daşıyır.

Hər bir direktor, vəzifəli şəxs və əməkdaşa Şirkət daxilindəki və ya kənar auditorlara qeyri-qanuni təsir göstərmək, onları nəyəsə məcbur etmək, manipulyasiya etmək və ya yanlış yönləndirmək və ya onların Şirkətin maliyyə hesabatlarının ciddi auditini həyata keçirməsinə mane olmaq üçün hər hansı addımlar atmaq qadağan edilir.

Analitiklər və sərmayəçilərlə ünsiyyətdə olan hər bir vəzifəli şəxs və ya səlahiyyətli əməkdaş analitiklər və sərmayəçilərlə müzakirələr aparan zaman ƏA qaydasına (ƏA — ədalətli açıqlama) riayət etməli və vəzifəli şəxsə ƏA qaydasının bilərəkdən pozulması halı məlum olduqda düzəldici sənədləşdirmə aparılmalıdır. Şirkət barədə mühüm gizli məlumatı qiymətli kağızlar bazarının peşəkarları və ya səhmdarlarına açıqladığımızda (səhmdarların bu məlumatları başqalarına ötürəcəyini iddia etmək üçün kifayət əsasımız olduqda) bu məlumatı ictimaiyyətə açıqlamalı olduğunuz ƏA qaydasında qeyd edilmişdir. “Qiymətli kağızlar bazarının peşəkarları” dedikdə, ümumilikdə analitiklər, institut sərmayəçiləri və başqa sərmayə məsləhətçiləri nəzərdə tutulur.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Dəqiq, vaxtında, tam, ədalətli və aydın bəyanatlar vermək.

Unutmayın ki, hər birimiz Weatherford qeydləri, o cümlədən uçot tabelləri, xərc hesabatları, müavinətlərin qeydiyyatı formaları, satınalma sifarişləri, keyfiyyət qeydləri, maliyyə hesabatları və bir çox digər qeyd və məlumat formaları ilə işləyirik.

Daxili nəzarət prosedurlarımıza riayət edin. Hər hansı maliyyə tranzaksiyalarının hər hansı müvafiq dəstəkləyici sənədləri ehtiva etdiyindən əmin olun və davam etməzdən əvvəl tələb olunan təsdiqləri əldə edin.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz
ƏVVƏLKİ NÖVBƏTİ


D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz maliyyə qeydlərimizi dəqiqliklə aparırıq

## Aşağıdakıları edin

- Tranzaksiyaları düzgün kodlarla düzgün hesablara yazın.
- Bütün tranzaksiyaları vaxtında qeydə alın.
- Tranzaksiyaları müvafiq Səlahiyyət verilmə qaydasına uyğun olaraq həyata keçirin.
- Weatherford aktivlərini qoruyun və onlara çıxışı məhdudlaşdırın.
- Tranzaksiyaların əsl mahiyyətini təfərrüatları ilə qeyd etmək üçün onları tam təsvirləri ilə daxil edin.
- Tranzaksiyalara icazə verilməsi, tranzaksiyaların qeydə alınması və aktivlərin saxlanması ilə bağlı vəzifələri ayırın.
- Bütün tranzaksiyalara dair aydın və şəffaf qeydlər aparmaq üçün dəstəkləyici sənədləri saxlayın.
- Maliyyə qeydləri ilə bağlı təsdiqlər etməzdən əvvəl bütün müvafiq dəstəkləyici sənədləri ətraflı nəzərdən keçirin.
- Yalnız təsdiq edilmiş satıcılardan mal və xidmətləri alın.
- Mümkün olduqda nağd satınalmaları məhdudlaşdırın.
- Bütün xərc hesabatlarının müvafiq iqtisadi əsaslandırması olduğundan əmin olun.
- Weatherford şirkətinin maliyyə qeydləri ilə bağlı bütün siyasət və tələblərinə əməl edin.

## Aşağıdakıları etməyin

- Səhv və ya aldadıcı, yaxud əməliyyatın əsl mahiyyəti ilə bağlı əhəmiyyətli məlumatları gizlədən və ya ehtiva etməyən qeydlər yaratmayın.
- Xərc hesabatlarına aid qəbzlərdə düzəliş etməyin.
- Uçot tabelləri və ya bonus qeydlərinə yalan məlumat daxil etməyin.
- Keyfiyyət, təhlükəsizlik və ya sınaq nəticələrini dəyişdirməyin və ya saxtalaşdırmayın.
- Yanlış məlumatlar olan heç bir qeyd yaratmayın.
- Məlum öhdəlikləri və ya aktivləri olduğundan aşağı və ya yüksək göstərməyin.
- Açıqlanmamış və ya qeydə alınmamış öhdəlikləri, vəsaitləri və ya mühasibat uçotunda olmayan hesabları və ya qeydləri saxlamayın.
- Xərclərə silinməli olan maddələri yanlış qeyd etməyin və ya qeyd etməməyə çalışmayın.




D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ ÇİRKLİ PULLARIN YUYULMASININ QARŞISINI ALMAQ ÜÇÜN TƏKİDLƏ ŞƏFFAFLIQ TƏLƏB EDİRİK

## ÖHDƏLİYİMİZ

Biz yalnız qanuni biznes fəaliyyəti ilə məşqul olan və qanuni mənbələrdən maliyyələşən nüfuzlu üçüncü tərəflərlə əməkdaşlıq etmək lazım olduğuna inanırıq. Biz çirkli pulların yuyulması qanunlarına əməl edir və şübhəli tranzaksiyaları icra etmirik. Biz şirkətimizdən diqqətsizlik nəticəsində cinayət məqsədilə istifadə edilməsinin qarşısını almaq üçün üçüncü tərəfləri lazımi qaydada yoxlamalardan keçiririk.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Çirkli pulların yuyulmasının qarşısını alın.

Çirkli pulların yuyulmasının xəbərdaredici əlamətləri ola bildiyi üçün nağd ödənişlər, qeyri-adi ödəniş mənşələri və ya üsulları, tranzaksiyada iştirak etməyən tərəflərin ödənişləri və ya ödənişlərin həyata keçirilməsi qaydasında qeyri-müntəzəm hər hansı digər təkliflərdən diqqətli olun.

### Düzgün kredit yoxlamalarının keçirilməsi üçün bütün yeni müştərilər və təchizatçılar barədə məlumatları təqdim edin.

Bütün müştəri və təchizatçıları yoxlayın. Birləşdirmə, əldə etmə və birgə müəssisə yaratmada iştirakı təklif edilən bütün tərəflərin mütləq lazımi yoxlanmasını təmin edin. Xəbərdarlıq nişanları müəyyən edildikdə diqqətinizi artırın və bütün şübhəli tranzaksiyalar barədə məlumat verin.

## ÇİRKLİ PULLARIN YUYULMASI NƏDİR

Fiziki və ya hüquqi şəxslərin cinayət fəaliyyətindən əldə edilən gəlirləri qanuni biznes sövdələrlə gizlətmək və ya maskalamağa çalışdığı və ya cinayət fəaliyyətlərini dəstəkləmək üçün qanuni vəsaitdən istifadə etdiyi proses.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz



D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ DAXİLİ MƏLUMATI KƏNAR ŞƏXSLƏRLƏ İLƏ PAYLAŞMIRIQ

## ÖHDƏLİYİMİZ

Biz bərabər hüquqlu oyun qaydalarına inanırıq. Şirkətin İnsayder məlumatlarının mübadiləsi siyasətinə uyğun olaraq, biz maddi, qeyri-ictimai (daxili) məlumatlara əsaslanaraq şirkətin səhmlərini almır və ya satmırıq və ya bunlar üçün başqalarına bəxşiş vermirik. Biz bu qadağanın yalnız Weatherford səhmlərinə deyil, həmçinin istənilən ictimai şirkətin səhmlərinə tətbiq edildiyini anlayırıq.

## SİZİN MƏSULİYYƏTİNİZ

### İnsayder mübadiləsinə yol verməmək. Bəxşiş verməmək.

İnsayder ticarəti qeyri-qanunidir və siz və Weatherford şirkəti üçün ciddi nəticələri ola bilər. Hansı növ məlumatın daxili məlumat hesab edildiyini bilin və onlarla mübadilə etməyin və ya ailə üzvləriniz, dostlarınız və ya Weatherford daxilində və ya xaricində biznes məqsədlər üçün bu məlumatı bilmək hüququ olanlardan başqa heç kəslə paylaşmayın. Weatherford şirkətindən ayrıldığınızda belə mübadilə və bəxşişlərlə bağlı qadağaların tətbiq edilməyə davam etdiyini unutmayın. Sizdən vaxtaşırı olaraq düzəliş edilən İnsayder məlumatlarının mübadiləsi siyasətini diqqətlə oxumaq və tətbiq etmək tələb edilir. Məlumatın daxili məlumat hesab edilib-edilmədiyinə əmin deyilsinizsə, Hüquq və Uyğunluq departamenti ilə əlaqə saxlayın.

## DAXİLİ MƏLUMAT NƏDİR

Weatherford şirkətinin əməkdaşı olaraq sizə məlum olan və ictimaiyyətə sızdığı halda səhmlərin alınması və ya satılması ilə bağlı qərar qəbul edən zaman mühüm hesab ediləcək hər hansı məlumat. Buraya gələcək mənfəət və ya zərərlərin proqnozları, qiymətlər, təkliflər və ya yeni məhsul və ya xidmətlər haqqında dərc olunmamış məlumatlar kimi qeyri-ictimai maliyyə məlumatları daxil ola bilər.





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# MÜNASİBƏTLƏRİMİZ VƏ SƏNAYEMİZ

"Mən xidmət etdiyimiz insanlar üçün etibarlı biznes ortaq olmağa çalışıram."

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz



D0014436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ TƏCHİZATÇILARLA MÜSBƏT ƏLAQƏLƏR QURURUQ

## ÖHDƏLİYİMİZ

Biz təchizat zəncirində dürüstlüyə inanırıq. Biz təchizatçılarımız və başqa üçüncü tərəflərlə ortaqlıq münasibətlərimizi yüksək qiymətləndirir və onlarla bizimlə davranılmalarını gözlədiyimiz kimi davranırıq. Təchizatçılar üçün davranış Kodeksimiz təchizatçılarımızla münasibətlərimizin əsasını təşkil edir və dayanıqlı ortaqlıq üçün onlardan gözləntilərimizi vurğulayır.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Təchizatla bağlı siyasət və prosedurlarımıza əməl etmək.

Təchizatçı seçimlərinin Weatherford şirkətinin ən yüksək maraqlarına uyğun olduğundan əmin olun. Müvafiq yoxlamalar aparmadan və səlahiyyətli şəxslərdən icazələr almadan təchizatla bağlı heç bir qərar qəbul etməyin.

### Yaxşı ortaq olun.

Təchizatçılarla ədalət və etimadla rəftar edin. Weatherford şirkətinin və təchizatçılarımızın məxfi və mülkiyyət məlumatlarını qoruyun. Məxfiliyi qorumadan Şirkətin həssas məlumatlarını açıqlamayın.

Unutmayın ki, biz tez-tez hər hansı hökumət və ya müştəri qarşısında Weatherford şirkətini təmsil edən üçüncü tərəf təchizatçılarının hərəkətlərinə görə məsuliyyət daşıyırıq; biz bunlara vasitəçilər deyirik. Vasitəçiləri necə seçdiyimiz və izlədiyimizlə bağlı siyasətlərimiz, standartlarımız və biznes təcrübələrimizdən xəbərdar olun.

Aldığımız məhsul və xidmətlərin keyfiyyətini təmin etmək üçün təchizatçıların Təchizatçılar üçün davranış Kodeksinə və bütün müqavilə öhdəliklərinə əməl etməsinə nəzarət edin.

Təchizatçının və ya başqa üçüncü tərəfin Kodeksimizi pozduğunu bilir, görür və ya şübhələnirsinizsə, dərhal Hüquq və Uyğunluq departamentinə bu barədə məlumat verin.




D001436571 (A.3) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ ƏDALƏTLİ ŞƏKİLDƏ RƏQABƏT APARIRIQ

## ÖHDƏLİYİMİZ

Biz sərt, lakin ədalətli rəqabətə inanırıq. Biz rəqabətli bazarı təşviq etmək və ictimaiyyəti ədalətli qiymətə keyfiyyətli məhsul və ya xidmətlə təmin etmək və ya bir rəqibin digəri qarşısında ədalətsiz və ya qeyri-əxlaqi üstünlüyünün qarşısını almaq üçün nəzərdə tutulmuş qanunlara (ədalətli rəqabət, anti-inhisar, monopoliya və ya kartellərlə bağlı qanunlar daxil olmaqla) riayət etmək öhdəliyinə malikik.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Ədalətli və açıq rəqabət aparmaq.

Heç zaman rəqiblər, təchizatçılar, distribyutorlar, müştərilər və ya hər hansı üçüncü tərəflərə ticarətin qarşısını ala biləcək və ya başqalarını rəqabətdən kənarlaşdıra biləcək hər hansı rəsmi və ya qeyri-rəsmi anlaşma təklifi etməyin, bu cür təklifləri müzakirə etməyin və ya bu cür təkliflərlə razılaşmayın.

Aldatma, səmimiyyətsizlik və ya oğurluq yolu ilə deyil, qanuni və əxlaqi vasitələrlə rəqabətli məlumat toplayın.







Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz

ƏVVƏLKİ NÖVBƏTİ

# Biz ədalətli şəkildə rəqabət aparırıq

## Aşağıdakıları edin

- Rəqabət baxımından həssas məsələlər yaranarsa, sənaye görüşlərini tərk edin və dərhal Hüquq və Uyğunluq departamenti ilə əlaqə saxlayın.
- Rəqiblərimiz haqqında əldə edilən hər hansı məlumatın mənbəyinə diqqət yetirin — rəqabət baxımından həssas sayılan hər hansı məlumatı nəzərdən keçirməyin, istifadə etməyin və ya paylaşmayın.
- Mənbənin nə vaxt problemli ola biləcəyini müəyyən etmək üçün Weatherford siyasətlərini, standartlarını, biznes təcrübələrini və təlimlərini nəzərdən keçirin. Mənbə qanuni deyilsə və ya onun qanuni olub-olmadığından əmin deyilsinizsə, məlumatla davranmazdan əvvəl Hüquq və Uyğunluq departamenti ilə əlaqə saxlayın.
- Hər hansı bir tədbir görməzdən əvvəl rəqabətə davamlı olmasını təmin etmək üçün rəqiblərin əməkdaşlıq imkanlarını diqqətlə təhlil edin.
- Reklam, satış və təşviqat materiallarına dair ədalətli, faktlara əsaslanan və tam bəyanatlar edin. Bizim və ya rəqibimizin məhsul və ya xidmətlərini müzakirə edərkən dürüst davranın.
- Fəaliyyətinizə tətbiq olunan anti-inhisar prinsipləri barədə əsas məlumatlarla tanış olun.
- Kömək üçün müraciət edin. Antiinhisar və ədalətli rəqabət qanunları mürəkkəbdir və pozulduğu təqdirdə, Weatherford və sizin üçün çox ciddi nəticələri ola bilər. Nə etməli olduğunuzla (yaxud olmadığınızla) bağlı sualınız varsa, kömək üçün Hüquq və Uyğunluq departamentinə müraciət edin.

## Aşağıdakıları etməyin

- Rəqiblərlə aşağıdakıları müzakirə etməyin və razılaşmayın:
  - Weatherford şirkətinin hansı təchizatçılar, müştərilər və ya podratçılarla əməkdaşlıq etdiyini (və ya edəcəyini), məhsullarını hansı bazarlara çıxarmaq niyyətində olduğunu və ya hansı şərtlərlə əməkdaşlıq edəcəyini müəyyən etmək.
  - Məhsul və ya xidmətlərimizin qiymətini qaldırmaq, təyin etmək və ya saxlamaq ("qiymətin fiksləşdirilməsi").
  - Rəqabətli tender prosesində qalib gələn təklifi kimin təqdim edəcəyinə qərar vermək ("tender saxtakarlığı").
  - Bazarları, əraziləri və ya müştəriləri bölüşdürmək və ya yerləşdirmək("buruqların yerləşdirilməsi").
  - İstehsal, satış və ya hasilatı məhdudlaşdırmaq.
  - Müəyyən müştərilərə satmaqdan və ya müəyyən təchizatçılardan almaqdan imtina etmək (iqtisadi ticarət sanksiyaları və ya oxşar hüquqi məhdudiyyətlər istisna olmaqla).
- Yeni əməkdaşların keçmiş işəgötürənləri haqqında rəqabət baxımından həssas məlumat toplamamaq və ya bu məlumatları əvvəlki iş yerinizdən Weatherford şirkətinə daşımamaq.
- Rəqabət imkanını məhdudlaşdıra bildiyi halda, müştərinin məhsul və ya xidmət satın alınmasının şərti olaraq başqa bir şey almaq məcburiyyətində qalmasını tələb edən "bağlayıcı" və ya "əlaqələndirici" müqavilələri bağlamamaq.
- Rəqabət imkanını məhdudlaşdıra bildiyi halda, təchizatçılardan və ya müştərilərdən eksklüzivlik tələb etməmək.
- Məhsullarımızın və ya xidmətlərimizin keyfiyyətini, funksiyalarını və ya əlçatanlığını təhrif etməmək və ya onlar yaxud rəqiblərimiz haqqında həqiqətə uyğun olmayan bəyanatlar etməmək.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz
ƏVVƏLKİ NÖVBƏTİ


D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ RÜŞVƏTXORLUQ VƏ KORRUPSİYA HALLARINA YOL VERMİRİK

## ÖHDƏLİYİMİZ

Biz məhsullarımızın, xidmətlərimizin və texnologiyalarımızın mahiyyəti əsasında müvəffəqiyyət əldə edəcəyimizə inanırıq. Biz korrupsiyanın mahiyyətcə yanlış bir şey olduğunu və davamlı inkişafa mane olduğunu, cəmiyyətə zərər verdiyini və inkişaf etməkdə olan icmalara mənfi təsir göstərdiyini bilirik. Biz rüşvət verməyəcək və ya başqalarının qərarlarına və ya hərəkətlərinə təsir edə biləcək və ya təsir göstərə biləcək dəyərli heç nə təklif etməyəcəyik. Biz həmçinin rüşvətxorluq və ya korrupsiya əməlləri ilə bağlı şübhələrə göz yummayacağıq.

Biz bizneslə məşğul olduğumuz hər yerdə rüşvətxorluq və korrupsiya ilə mübarizə qanunlarına əməl edirik. Yerli qanunların icazə verdiklərindən asılı olmayaraq, biz aşağıdakı məqsədlərlə birbaşa və ya dolayı yolla asanlaşdırıcı ödənişlərin edilməsini və ya təklif edilməsini, ödənilməsini, ödəmə vədi verilməsini və ya dəyərli hər hansı bir şeyi qəbul etməyi qadağan edirik:

- Biznesi əldə etmək və ya qoruyub saxlamaq
- Biznes qərarlara təsir etmək
- Dövlət səviyyəli prosesləri sürətləndirmək
- Ədalətsiz üstünlük əldə etmək

Bütün direktorlar, vəzifəli şəxslər və əməkdaşlar, eləcə də bizim adımızdan fəaliyyət göstərən üçüncü şəxslər bu öhdəliyi üzərinə götürməli və ona əməl etməlidir.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Qanuna riayət edin.

Kodeksimizi və gördüyünüz işi tənzimləyən qanunları bilin, anlayın və onlara əməl edin. Bizim adımızdan rüşvət və ya bəxşişlər verməyin və ya başqalarına bunu etməyə icazə verməyin. Yerli təcrübədən və ya digər şirkətlərin təcrübəsindən asılı olmayaraq, düzgün olmayan hər hər hansı işin ehtimalına belə yol verməyin.

### ASANLAŞDIRICI ÖDƏNİŞ NƏDİR

Dövlət səviyyəli standart prosedurların yerinə yetirilməsini sürətləndirmək və ya təmin etmək üçün dövlət məmuruna təklif edilən cüzi miqdarda nağd pul və ya dəyərli bir şey (bəzən "şirinlik" adlandırılır). Weatherford istənilən növ asanlaşdırıcı ödənişləri qadağan edir.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz


D0014365711 (A.3) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz rüşvətxorluq və korrupsiya hallarına yol vermirik

## Rüşvətxorluqla qarşılaşdığınızı anlayın.

Rüşvətin birbaşa və ya dolayı ola biləcəyi və ödənişlər, fərdi üstünlüklər, məsələn, fərdin ailə üzvünün işə götürülməsi, xeyriyyə və ya siyasi töhfələr, sponsorluqlar, hədiyyələr, yeməklər, əyləncələr və ya səyahətlər kimi müxtəlif formalar ala biləcəyini anlayın və Kodeksimizə əməl edin.

Görünüş vacibdir. Niyyətiniz səmimi olsa belə, başqaları bunun əksini düşündüyü halda, bunu etməyin. Kodeksimizə əməl edin və davranışınızın mükəmməl olduğundan əmin olun.

## Üçüncü tərəf risklərini azaldın.

Biz öz hərəkətlərimizdən başqa, adımızdan korrupsiya ödənişləri edən üçüncü tərəflərin hərəkətlərinə görə də məsuliyyət daşıyırıq, odur ki, Şirkətin "vasitəçi" anlayışına uyğun gələn üçüncü tərəfləri müəyyən edin və tələb olunan ilkin seçimdən əvvəl lazımi araşdırma və təsdiq prosesini keçdiyinizdən əmin olun. Bu məlumatlar alındıqdan sonra bu üçüncü tərəflərin fəaliyyətinə nəzarət edin və qeyri-müvafiq davranışda iştirak edən vasitəçi barədə məlumat verin.

Kodeksin sizə qadağan etdiyi hər hansı işlə məşqul olan üçüncü tərəflə işləməyin və ya üçüncü tərəflərə bu cür işlərlə məşqul olmaq icazəsi verməyin.

## Şəxsi təhlükəsizliyinizi qoruyun.

Sağlamlığınız və ya təhlükəsizliyinizin birbaşa təhlükə altında olduğu nadir hallarda, dərhal təhlükəsizliyinizi təmin etmək üçün əvvəlcədən icazə almadan şəxsi təhlükəsizlik ödənişi edilə bilər. Bununla belə, təhlükəsizliyiniz təmin edilən anda hadisə barədə məlumat vermək üçün dərhal Hüquq və Uyğunluq departamenti ilə əlaqə saxlamalısınız.

Təhlükəsizliyinin təmin edildikdən dərhal sonra və Hüquq və Uyğunluq departamentini məlumatlandırdıqdan sonra şəxsi təhlükəsizlik ödənişi xərclərini mühasibat uçotu və qeydlərimizdə dəqiq qeyd edin.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz

ƏVVƏLKİ NÖVBƏTİ



D001436571 (A 3) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ MARAQLARIN TOQQUŞMASINA YOL VERMİRİK

## ÖHDƏLİYİMİZ

Biz şəxsi maraqlarımızı Weatherford şirkətinin maraqlarından ayrı saxlamaq lazım olduğuna inanırıq. Biz Weatherford əməkdaşı olaraq obyektiv qərar qəbul etməyimizə mane ola biləcək (və ya hətta bu cür təəssürat yarada bilən) hər hansı şəxsi fəaliyyət və ya münasibətlərə yol verməməliyik.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Münaqişə ilə qarşılaşdırığınızı anlayın.

Peşəkar mülahizənizə kölgə sala biləcək şəxsi vəziyyətləri ayırd etməyi bacarın. Qarşılaşa biləcəyiniz hər potensial münaqişəni sadalamaq mümkün olmasa da, adətən münaqişələrin yaranmasına səbəb olan bəzi vəziyyətlər var, məsələn:

- Rəqib və ya əməkdaşlıq etdiyimiz şirkətə sərmayə yatırmaq (yaxud ailə və ya dostlarınızın bu cür şirkətlərə sərmayə yatırması).
- Ailə və ya dostlarınızı Şirkətin fəaliyyətinə cəlb etmək, onlara rəhbərlik etmək və ya biznes münasibətlər yaratmaq.
- Şirkətimizdəki işlə rəqabət aparan və ya işinizə sərf etdiyiniz vaxt, istedad və ya enerjiyə mane olan bir şirkətdə (Weatherford şirkətindən kənar) əlavə iş götürmək.
- Bizimlə eyni biznes maraqlarını bölüşən şirkətlərin direktorlar şurasına daxil olmaq.
- Siyasətlərimizin tələblərinə əməl etməyən təchizatçılardan hədiyyə və ya əyləncə təkliflərini qəbul etmək.
- Weatherford şirkətinə aid biznes imkanları öz xeyrinizə istifadə etmək.
- Weatherford təchizatçısının təqdim etdiyi hər hansı faydadan yararlanmaq.





D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz maraqların toqquşmasına yol vermirik

## Obyektiv qərarlar qəbul edilməsini təmin edin.

Özünüzə, ailənizə və ya dostlarınıza fayda vermək üçün heç vaxt Weatherford şirkətindəki işinizdən və ya Weatherford resurslarından istifadə etməyin. Qərarlar qəbul edərkən lazımi səlahiyyətlərə malik olduğunuzdan əmin olun.

Weatherford resurslarını öz resurlsarınızı idarə etdiyiniz diqqətliliklə idarə edin.

## Açıqlayın.

Münaqişə, şübhəli münaqişə və ya münaqişə təəssüratı yaradan vəziyyətdən xəbərdarsınızsa, Weatherford şirkətinin tələb etdiyi açıqlama prosesinə əməl edərək, bu barədə dərhal və tam açıqlama verin.

Şəxsi marağımın Weatherford şirkətinin marağı ilə ziddiyyət təşkil edib-etmədiyindən əmin olmadığım zaman özümdən aşağıdakıları soruşuram:

Bu, işimlə bağlı verdiyim qərarlara təsir edə bilərmi?

Bu, mənim, ailəmin və ya dostlarımın ədalətsiz fayda əldə etməsi ilə nəticələnə bilərmi?

Başqalarına elə görünə bilərmi ki, bu, mənim işimə və ya qərarlarıma təsir edir?

Bu, Weatherford şirkətinin nüfuzuna xələl gətirə bilərmi?

Bu suallardan hər hansı birinin cavabı BƏLI olarsa, hər hansı tədbir görməzdən əvvəl bu məsələni menecerim və ya Hüquq və Uyğunluq dpartamenti ilə müzakirə edəcəyəm.





D001436571 (A.3) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ HƏ?DİYYƏLƏR,ƏYLƏNCƏ VƏ SƏYAHƏTLƏRLƏ BAĞLI QAYDALARI BİLİRİK

## ÖHDƏLİYİMİZ

Biz Kodeksimizə riayət etmək öhdəliyimizə uyğun olan müsbət iş münasibətlərinin qurulmasına inanır və hədiyyə və ya əyləncə təklif edərkən yaxud bu cür təklifləri qəbul edərkən düzgün mühakimə, təmkinlilik və mülayimlik nümayiş etdiririk. Kodeksimiz və əlaqədar standartlarımız, biznes təcrübələrimiz və təlimatlarlarımız bizə yaxşı biznes təcrübəsi çərçivəsində aldığımız təkliflərlə peşəkar mühakiməmizi və ya müştərilərimizin mühakimələrini şübhə altına qoya bilən (və ya şübhə altına qoymuş təəssüratı yaradan) təkliflər arasında sərhəd çəkməyə kömək edir.

Hədiyyə, əyləncə və səyahətlə bağlı xərclər uyğun və ağlabatan olmalı, mühasibat uçotu kitabımızda və qeydlərimizdə dəqiq və dolğun şəkildə qeyd edilməli və heç vaxt öhdəlik hissi və ya təəssüratı yaratmamalıdır.






Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz





D00143657 1 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz hədiyyələr, əyləncə və səyahətlərlə bağlı qaydaları bilirik

SİZİN MƏSULIYYƏTINIZ

## Aşağıdakıları edin

- Weatherford tərəfindən üçüncü tərəfə təklif edilən və ya üçüncü tərəfin Weatherford şirkətinə təklif etdiyi hər hansı hədiyyə, əyləncə və ya səyahətin aşağıdakılara uyğun olduğundan əmin olun:
  - Təklif qanunidir və əxlaqlı Weatherford şirkətinin biznes məqsədlərinə cavab verir.
  - Təklif qanuna və həm onu edən, həm də qəbul edəninşirkət siyasətlərinə uyğundur.
  - Təklif qəbul edilən ümumi yerli biznes təcrübələrinə uyğundur və obyektiv müşahidəçi tərəfindən müvafiq hesab edilə bilər.
  - Təklif açıq və şəffafdır.
- Hədiyyə, əyləncə və ya səyahət təklif, təqdim və ya qəbul edilməsi ilə bağlı Weatherford şirkətinin sənədləşmə və təsdiq prosedurlarına əməl edin. Menecer vəzifəsindəsinizsə, qanun biznes məqsədin sənədləşdirildiyindən əmin olmaq üçün hədiyyə, əyləncə və ya səyahətlə bağlı bütün xərcləri və başqa sənədləri diqqətlə yoxlayın. Aydın olmayan məqamları işçinizdən soruşun və məsələni Hüquq və Uyğunluq departamentinə çatdırın.

## Aşağıdakıları etməyin

- Aşağıdakı hallarda hədiyyə, əyləncə və ya səlahətlə bağlı xərcləri təklif, təqdim və ya qəbul eməyin:
  - Nağd pul və ya nağd ekvialenti şəklində olduqda (məsələn, hədiyyə kartları, hədiyyə sertifikatları, kredit və ya səhmlər və istiqrazlar).
  - Öhdəlik yaratmaq və ya əvəzində nəsə almaq üçün təklif edildikdə və ya bu məqsədlə təklif edildiyi təəssüratı yaratdıqda(məsələn, fayda və ya sərfəli biznes həlli).
  - Qərar qəbulunda iştirak edən şəxsə təklif edildikdə(məsələn, təklif tender prosesinin ortasında edildikdə).
  - Weatherford şirkətini pərt vəziyyətdə qoyduqda və ya mədəniyyət baxımından qadağan edilmiş, qeyri-həssas və ya qeyri-müvafiq olduqda.
  - Təkidlə təklif edildikdə.
  - Həddən çox səxavətli olduqda və ya başqalarında bu cür təəssürat yaratdıqda.
  - Yalnız müvafiq iş adamının ailə üzvlərinə faydası olduqda.
  - Başqa şəhər və ya ölkələrə əlavə səfər üçün olduqda yaxud biznes məqsədə nail olmaq üçün lazım olan vaxt limitini aşan müddət üçün xərcləri ehtiva etdikdə.




D001436571 (A.3) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZ BEYNƏLXALQ TİCARƏT QANUNLARINA ƏMƏL EDİRİK

## ÖHDƏLİYİMİZ

Dünya üzrə məhsullar, xidmətlər, proqram təminatları və texnologiyalar idxal və ixrac etmək qabiliyyətimiz hüquq deyil, üstünlükdür və biz fəaliyyət göstərməyi seçdiyimiz bütün ölkələrin qanun və qaydalarına əməl etməliyik.

## SİZİN MƏSULİYYƏTİNİZ

### Transsərhəd əməliyyatlarda iştirak edən zaman diqqətli və məlumatlı olun.

Əl yükləri, kuryer vasitəsilə göndərilmələr və elektron köçürmələr daxil olmaqla idxal və ixrac prosedurları üçün bütün lazımi lisenziya və icazələri alın.

Hər bir transsərhəd əməliyyatına idxal və ixraca dair müvafiq təsnifat, qiymətləndirmə və mənşə ölkə barədə məlumatın daxil edilməsindən əmin olun.

Weatherford şirkətinin fəaliyyət göstərmək icazəsi olan və seçdiyi yerləri tanıyın. Ticarət sanksiyaları bizə müəyyən ölkələr, qurumlar, fiziki şəxslər və ya məhdudlaşdırılmış tərəflərlə iş aparmağı qadağan edə bilər.

Vədimiz
İnsanlarımız və Planetimiz
Şirkətimiz
Münasibətlərimiz və Sənayemiz


D00143657 1 (A.3) PMTD: VAQUERA, AMY N 2024-04-03

# Biz beynəlxalq ticarət qanunlarına əməl edirik

## Rəqiblərinizi tanıyın.

Kiminlə işlədiyinizi bilin və onlarla harada və nə üçün işlədiyinizə diqqət yetirin. Məhsullarımızın və xidmətlərimizin düzgün şəkildə istifadə edilmək üçün doğru yolla doğru təyinat yerində doğru alıcıya çatdırılmasını təmin etmək üçün müştərilərdən və satış ortaqlarında Son İstifadəçi/Son İstifadə/Son Təyinat Bəyannamələrini (SİB-ləri) əldə edin. SİB-lərin dolğun və dəqiq doldurulduğundan əmin olun və yaranan narahatlıqlarınızı Hüquq və Uyğunluq departamentinə bildirin.

Yalnız təsdiq edilmiş gömrük brokerləri və ekspeditor xidmətlərindən istifadə edin. Bunlar yüksək riskli vasitəçilərdir, ona görə də bu təchizatçıların lazımi araşdırma tələblərimizə cavab verdiyindən və təsdiq edildiyindən əmin olun.

## Qadağan edilmiş boykotları rədd edin.

Təsdiq üçün Weatherford şirkətinə təqdim olunan bütün üçüncü tərəf sənədlərini nəzərdən keçirin və boykot sorğularını Uyğunluq departamentinə bildirib növbəti təlimatlarını gözləyin. Boykotlar Weatherford şirkətinin müəyyən ölkələr və müəyyən partiyalarla biznes əlaqələrinə məhdudiyyətlər qoyur.

## Sayıq olun.

Xüsusilə sanksiyaya məruz qalan ölkələr və ya məhdudlaşdırılmış tərəflərlə bağlı Weatherford şirkətini risk altına ala biləcək transsərhəd əməliyyatlarda xəbərdarlıq işarələrinə diqqət yetirin. Narahat olduğunuz hər bir məsələni dərhal Hüquq və Uyğunluq departamentinə bildirin.

## Suallar verin.

Weatherford şirkətinin fəaliyyət göstərmək icazəsi olmadığı və ya bu gün fəaliyyət göstərməyi seçmədiyi yerləri dəqiq bilmirsiniz? Hüquq və Uyğunluq departamentinin əməkdaşlarına sual verin.




D001436571 (A.3) PMTD: VAQUERA, AMY N 2024-04-03

# BİZNES DAVRANIŞ KODEKSİ

Vədimiz

İnsanlarımız və Planetimiz

Şirkətimiz

Münasibətlərimiz və Sənayemiz



D001436571 (A.2) PMTD: VAQUERA, AMY N 2024-04-03